# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№ 250/6** **31 yanvar 2014-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının nəzdində Azərbaycan Dövlət Neft Akademiyasının baza kafedrasının yaradılması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının nəzdində Azərbaycan Dövlət Neft Akademiyasının baza kafedrasının yaradılması ilə əlaqədar Azərbaycan Dövlət Neft Akademiyası tərəfindən daxil olmuş təklifi müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının nəzdində Azərbaycan Dövlət Neft Akademiyasının və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə "Sənaye sahələrində auditin təşkili" adlı baza kafedrasının yaradılması məqsədəmüvafiq hesab edilsin.
2. Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova, Kadr hazırlığı və beynəlxalq əlaqədar idarəsinin rəisi S.Gülməmmədova və Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova tapşırılsın ki, baza kafedrasının yaradılması ilə əlaqədar Azərbaycan Dövlət Neft Akademiyası ilə birgə tədbirlərin həyata keçirilməsini təmin etsinlər.
3. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**